# Laçın–Xankəndi yolunda ictimai nəzarət zərurətdən yarandı

## *Vardanyan separatçı dalanda dayaq tapa bilmir*

**Laçın-Xankəndi yolunda azərbaycanlı ekofəallar və QHT nümayəndələri tərəfindən 39 gündür keçirilən etirazların konkret səbəbləri dünya ictimaiyyətinə məlumdur. Lakin bu etiraz dalğasını yaradan, ona gətirib çıxaran səbəblərin əsl mahiyyəti, Azərbaycanın haqlı mövqeyi barədə əsl həqiqətlər dünyanın mötəbər tribunalarında, nədənsə səslənmir. Ekoloji etirazları yaradan səbəblərin aradan qaldırılması ilə bağlı beynəlxalq səviyyədə heç bir addım atılmır. Bəzən "pas" Ermənistan tərəfə ötürülür. Bu, ilk baxışda "soyuq duş effekti" yaradır. Burada sadə həqiqət var, yol blokadada deyil və orada ermənilərin iddia etdikləri kimi, hər hansı bir humanitar fəlakət və ya böhran yaşanmır. Yoldan hərbi vasitələrdən başqa bütün humanitar yüklər, ərzaq, dərman və digər tələbat malları maneəsiz daşınır. Azərbaycan gəncləri, sadəcə olaraq, haqlarını tələb edirlər.**






Bir ay öncə Laçın–Xankəndi yolundakı aksiyanı BMT Təhlükəsizlik Şurası müstəvisinə çıxarmağa çalışan ermənipərəst dairələr məğlubiyyətlərindən sonra, bu məsələni indi də Avropa Parlamenti səviyyəsində gündəmə gətirməyə çalışırlar. Artıq erməni yalanlarına da inanmırlar. Bu gün Azərbaycanın dostları bütün platformalarda erməni yalanlarına qarşı əsl müqavimət nümayiş etdirirlər. "Haqq nazilər, amma üzülməz" deyiminin hikmətini yaxşı anlayırıq. Azərbaycanın haqq işi mütləq şəkildə qələbə qazanacaq, sadəcə gecikmək istəmirik. Sərvətlərimizin talanmasına, ekologiyamızın çirklənməsinə göz yuma bilmərik. 30 illik səbir bəs etmədimi? Faktiki olaraq sərvətlərimiz talan edilir. Laçın–Xankəndi yolundakı aksiya haqlı tələblərdən irəli gəlir. Bu etiraz aksiyaları isə Azərbaycanın tələbləri həyata keçənədək davam edəcək.

Beynəlxalq təşkilatların üzərinə düşən öhdəlik bundan ibarət olmalıdır ki, etiraz yaradan səbəbləri aradan qaldırmaqla Azərbaycanın müvafiq dövlət qurumlarının nümayəndələrinin təbii sərvətlərimizin monitorinqini aparmalarına dəstək nümayiş etdirsinlər. Bu, həm də vicdan məsələsidir. Ermənistanın dövlət rəsmiləri elə çıxış edirlər ki, sanki, Qarabağ bunların torpağıdır. Lakin Ermənistan hökumətinin başbilənləri unudurlar ki, çıxış etdikləri tribunanın yerləşdiyi ərazi belə qədim Azərbaycan torpaqlarıdır.

Qarabağdakı erməni separatçıları bütün hallarda beynəlxalq hüquq normalarını açıq şəkildə pozaraq, Azərbaycanın dünya ictimaiyyəti tərəfindən tanınan ərazilərində təbii sərvətlərimizi qeyri-qanuni istismar etməklə özbaşınalığa yol verirlər. Ermənistan silahlı qüvvələri üçtərəfli bəyanatın 4-cü maddəsində nəzərdə tutulduğu kimi, həmin ərazini tərk etməli idi, lakin bu, baş vermədi. Onlar nəinki ərazini tərk etməkdən imtina ediblər, həm də daxili və xarici şirkətlərin cəlb edilməsi yolu ilə qeyri-qanuni mis və qızıl hasilatı ilə məşğul olublar. Bu qanunsuz əməllər ətraf mühitin çirklənməsinə, regionun ekoloji durumunda ciddi fəsadlar yaradacaq problemlərə səbəb olur.

Dünyanın bir sıra ölkələrinin aparıcı mətbuat orqanları azərbaycanlı ekofəalların Şuşa ərazisindən keçən Laçın–Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyasından yazır. Məqalələrdə azərbaycanlı ekofəalların keçirdiyi aksiya ilə beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycanın Qarabağ bölgəsindəki faydalı qazıntı yataqlarının yerli ermənilər tərəfindən qanunsuz istismarına və ekologiyaya vurulan ziyana yönəltdiklərini qeyd edir. Bildirilir ki, üçtərəfli bəyanata uyğun olaraq, 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsindən sonra yola nəzarət üçün buraya müvəqqəti olaraq Rusiya sülhməramlıları yerləşdirilib. Ekofəallar Qarabağda ermənilərin qanunsuz istismar etdiyi faydalı qazıntı yataqlarına çıxışını pisləyir. Ancaq bəzi ermənipərəst media qurumları Ermənistanın yalan məlumatlarını tirajlamaqla məşğuldur.

Rusiya sülhməramlılarına və Qırmızı Xaç Komitəsinə məxsus avtomobillər həmişə olduğu kimi, bu gün də Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil olunan aksiya ərazisindən sərbəst keçirlər. Bu, bir daha onu göstərir ki, ərazidə hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin olunur. Heç də siyasi xarakter daşımayan aksiya humanitar məqsədlərə xidmət edir.

Öz növbəsində Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda Litvanın Prezidenti Gitanas Nauseda ilə görüşü zamanı Azərbaycan ərazisində Laçın–Xankəndi yolunda baş verən hadisələr barədə fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı Ermənistanın beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə Laçın yolundakı hadisələrlə əlaqədar manipulyasiya ilə məşğul olduğunu və yalan məlumatlar əsasında guya yolun bağlı olduğunu iddia etdiyini deyib. Prezident İlham Əliyev yolun mülki şəxslər və mülki təyinatlı yüklərin keçidi üçün açıq olduğunu, həmçinin Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə humanitar yüklərin sərbəst hərəkətinin təmin edildiyini bildirib.

Prezident İlham Əliyev Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarına son qoyulmasının və kriminal ünsürlərin ərazidən çıxarılmasının vacibliyini diqqətə çatdırdı. Azərbaycan Prezidenti Ermənistan tərəfinin ötən iki ildən artıq müddət ərzində Laçın yolundan minaların, silah-sursatın və şəxsi heyətin daşınması üçün istifadə etdiyini bildirdi.

***

Bir müddət əvvəl Qarabağa göndərilən Ruben Vardanyanın başı üzərində "qara bulud"lar dolaşır. O, nəinki Qarabağda, hətta Ermənistanda da yaşayan ermənilərin nifrətini qazanıb. Ermənistanın sosial şəbəkə seqmetində ona qarşı dərin hikkə nümayiş etdirilir. Çıxılmaz vəziyyətdə qalan rusiyalı milyarder daha İrəvana da gedə bilmir. Sərvətlərini itirmə təhlükəsi ilə üzləşən Vardanyan səhv yol tutaraq Qarabağda yaşayan ermənilərə əziyyət verir, Laçın–Xankəndi yolu ilə göndərilən ərzaqlar gizlədilir. Azərbaycanın qəti mövqeyindən əndişələnən separatçı "beynəlxalq dəstəyin" də verilməməsini gördükcə sərsəm bəyanatlar verir, çıxışlar edir. Məsələn, o, RTVI kanalına müsahibəsində Rusiya, Avropa və ABŞ-ı Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə çağırıb. Vardanyanın əsassız, boş bəyanatlarından Ermənistan qədər Rusiya da bezikib. Ermənistanın KTMT-dən üz çevirməsi, analitik düşüncə korluğundan əziyyət çəkən xarici siyasəti regionda Rusiyanın da maraqları ilə uzlaşmır. Rusiya faktiki olaraq Azərbaycan kimi müttəfiqini itirmək istəmir.

Ermənistanın bəzi mətbuat orqanları belə yolun açıq olduğunu yazır. R.Vardanyanın məqsədi yalan maşınını işə salmaqla öz hökmranlığını bərpa etməkdir. O, özü də yaxşı başa düşür ki, bütün nüfuzunu itirib, Qarabağdan qovulmasına sayılı günlər qalıb. Digər tərəfdən, Azərbaycan Prezidentinin mütəmadi xarici səfərləri, çıxışları, abadlıq-quruculuq işləri, uzunmüddətli perspektivə əsaslanan siyasət onu deməyə mütləq şəkildə əsas verir ki, regiona xüsusi nəfəs gəlir, inkişaf gəlir. Bunun müəllifi məhz Azərbaycan və onun Prezidentidir.

**Rizvan FİKRƏTOĞLU, "Xalq qəzeti"**

Xalq qəzeti .- 2023.- 19 yanvar.- S.5.